**UOT: 94 (479.24)**
https://doi.org/10.59849/2409-4838.2026.2.61

# AZƏRBAYCANDA YƏHUDİLƏRİN MƏSKUNLAŞMASI: TARİXİ İZLƏR

**Zeynəb Natiq qızı Allahverdiyeva**
AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, Bakı, Azərbaycan
zeyneb-allahverdiyeva-00@mail.ru

*Azərbaycan coğrafi yerləşməsinə və strateji mövqeyinə görə tarixən müxtəlif xalqlara ev sahibliyi etmişdir. Ticarətə, müharibələrə görə bu torpaqlardan keçən bəzi xalqlar burada qalaraq məskən salmışdır. Ölkəmizin ev sahibliyi etdiyi xalqlardan biri də yəhudilərdir. Ölkəmizdə hər zaman sülh və əmin-amanlıq şəraitində yaşayan xalqlar arasında yəhudiləri xüsusilə qeyd etmək olar. Azərbaycanın yəhudi icması çoxəsrlik tarixə malikdir. Onlar Azərbaycan torpaqlarına tarixin müəyyən mərhələlərində köç edib və məskunlaşıblar. Ancaq heç bir tarixi zaman kəsiyində ölkəmizdə ayrı-seçkiliyə və assimilyasiyaya məruz qalmayıblar. Yəhudilər ölkənin sosial-mədəni həyatında aktiv rol oynayıblar. Azərbaycanda qədim tarixə malik olan yəhudi icmasının bu torpaqlarda məskunlaşmasının tarixi baxımdan tədqiqi xüsusən Azərbaycan-İsrail strateji münasibətlərinin fonunda aktuallıq təşkil edir.*

***Açar sözlər:*** *İsrail, icma, multikulturalizm, azsaylı xalqlar.*

## GİRİŞ

Azərbaycan əsrlər boyu bütün xalqların qarşılıqlı anlaşma, sülh və təhlükəsizlik şəraitində yaşaya bildiyi tolerant bir ölkə olmuşdur. Tarixən başqa millətlərə və səmavi dinlərə, fərqli mədəniyyətlərə yanaşması ilə seçilən Azərbaycanda müşahidə edilən tolerantlıq xalqımızın milli-mənəvi dəyərlər sistemindən, düşüncə tərzindən qaynaqlanır. Geostrateji mövqeyinə görə müxtəlif dünyagörüşlərin, milli-mənəvi dəyərlərin qovuşduğu bu torpaqlarda bütün xalqlar sülh və əmin-amanlıq mühitində yaşamışdır.

Ölkəmiz tarix boyu müxtəlif xalqlara ev sahibliyi edib. Bu xalqlardan biri də yəhudilərdir. Ölkəmizdə hər zaman sülh və əmin-amanlıq şəraitində yaşayan xalqlar arasında yəhudiləri xüsusilə qeyd etmək olar. Azərbaycanın yəhudi icması çoxəsrlik tarixə malikdir. Hər bir halda Azərbaycanda yaranmış yəhudi diasporunun dünya üzrə meydana gəlmiş ilk diasporalardan olması aydın olur. Azərbaycanda bu etnos daha çox "cuhud", yaxud "yəhudi" adlandırılır.

Uzun tarixi inkişaf nəticəsində Azərbaycan yəhudilərinin tərkibində müəyyən dəyişikliklər baş vermişdir. Yəhudilər hal-hazırda ölkəmizdə üç subetnik qrupla təmsil olunurlar (dağ yəhudiləri, aşkenazilər (Avropa yəhudiləri) və gürcü yəhudiləri). Onlar Azərbaycan torpaqlarına tarixin müəyyən mərhələlərində köç etdib və məskunlaşıblar. Ancaq heç bir tarixi zaman kəsiyində ölkəmizdə ayrı-seçkiliyə və assimilyasiyaya məruz qalmayıblar.

Yəhudilərin bu torpaqlara köçməsi və Azərbaycan türkləri ilə birgə yaşaması tarixi yüzilliklər öncə mövcud olmuş Alban dövlətinə qədər uzanır.

Bu məqalədə yəhudilərin Azərbaycan torpaqlarında məskunlaşması prosesi və onun tarixi, sonrakı dövrlərdə onların ölkəmizin sosial-mədəni həyatındakı rolu, həmçinin hazırda ölkəmizdə mövcud olan yəhudi icmalarının formalaşması prosesi araşdırılmışdır.

## ƏSAS HİSSƏ

Azərbaycan qədim tarixə, zəngin maddi – mədəni irsə sahib olan bir ölkədir. Coğrafi yerləşməsinə görə ölkəmiz Qərblə Şərq, Şimalla Cənub arasında körpü rolunu oynayıb və oynamağa da-

vam edir. Tarixən əhəməni, skif, xəzər, türk mədəniyyətlərinin və sivilizasiyaların kəsişməsində yerləşən bu torpaqlar müxtəlif tarixi dövrlərdə bir çox qəbilələrin, tayfaların və xalqların məskunlaşdığı ərazilərə çevrilib.

Azərbaycan əhalisinin əsas hissəsi azərbaycanlılardan və ölkənin müxtəlif guşələrində yığcam halda yaşayan 30 adda millət və etnik qruplardan ibarətdir. Onlardan Altay ailəsinin türk qoluna mənsub olan ahısqa türkləri, tatarlar, həmçinin hind-avropa dil ailəsinə mənsub olan tatlar, talışlar, kürdlər, qafqaz dil ailəsinə mənsub olan avarlar, ləzgilər, udilər, saxurlar, buduqlar, ingiloylar, qrızlar, slavyan dil ailəsinə mənsub olan ruslar, malakanlar, ukraynalıları qeyd etmək olar.

Ölkəmizdə hər zaman sülh və əmin-amanlıq şəraitində yaşayan xalqlar arasında yəhudiləri xüsusilə qeyd etmək olar. Azərbaycanın yəhudi icması çoxəsrlik tarixə malikdir.

Tarixi mənbələrdə yəhudilərin Azərbaycan torpaqlarına necə gəlməsi və məskunlaşmaları ilə bağlı müəyyən məlumatlara rast gəlinir. Belə ki, Məhəmmədhəsən Vəlili (Baharlı) hələ 1921-ci ildə Bakıda nəşr olunmuş “Azərbaycan. Coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat” adlı kitabında “Azərbaycan yəhudiləri, Assuri padşahları tərəfindən əsir edilmiş, əvvəl Assuriyada və sonra Midiyada sakin edilmiş qədim yəhudilərin övladlarındandırlar. Buradan yəhudilər Assuri hökmranlığının süqutundan sonra, Salmanasar şahın zamanında (720 il İsadan qabaq və 1342 il hicrəti – Mühəmmədiyədən irəli), indiki Azərbaycana, Gürcüstana və Dağıstana köçmüşdülər”. Azərbaycanda yəhudi diasporunun təşəkkülünün Əhəmənilər dövrü ilə əlaqələndirilməsi barədə də fikirlər vardır. Hər bir halda, Azərbaycanda yaranmış yəhudi diasporunun dünya üzrə meydana gəlmiş ilk diasporalardan olması aydın olur. Azərbaycanda bu etnos daha çox “cuhud”, yaxud “yəhudi” adlandırılır [6]. Sonrakı əsrlərdə regionda baş verən hərbi-siyasi xarakterli proseslərdən asılı olaraq Azərbaycandakı yəhudilərin sayı artıb-azalırdı.

Alban tarixçisi Musa Kalankatlı VII əsrdə Alban dövlətinin paytaxtı Bərdə şəhərində “xristian, yəhudi və bütpərəst” icmaların mövcudluğu haqqında məlumat verir. Mənbələrdə orta əsrlər yəhudi səyyahı Benyamin XII əsrdə Azərbaycanda 1000 (min) sinaqoq olduğunuda qeyd etmişdir. [3].

Mənbələrdən göründüyü kimi artıq VII əsrdə Albaniya dövlətində yəhudi icması mövcud olmuşdur. Yəhudilərin Azərbaycana yerləşmə tarixi təxminən 2600 il əvvəl olduğu və bu böyük tarixi dövr ərzində yerli xalq tərəfindən heç vaxt milli və dini ayrı seçkiliyə məruz qalmalarına dair heç bir fakt yoxdur. Yəhudilər ölkəmizdə üç subetnik qrupla (yaxud icma) təmsil olunmuşdur: dağ yəhudiləri, aşkenazilər (Avropa yəhudiləri) və gürcü yəhudiləri.

*Dağ yəhudiləri* Azərbaycanda ilk məskunlaşan yəhudi subetnik qrupudur. Eyni zamanda, onlar ölkəmizdə yaşayan aşkenazi və gürcü yəhudilərindən də sayca üstündülər.Yəhudilik Azərbaycanda tarixən dağ yəhudiləri ilə təmsil olunmuşdur.Yəhudilərinin bu torpaqlara ilk köçürülməsi Sasani dövlətilə (III-VII əsrlər) əlaqələndirilir. Sasanilər Xəzərsahili bölgələrin müdafiəsini təşkil etmək üçün imperiyanın müxtəlif yerlərindən buraya əhali köçürmüşdür. Onların içərisində yəhudilər də var idi. Bu proses Ərəb Xilafəti (VII-IX əsrlər), monqollar (XIII-XIV əsrlər) və sonrakı dövrlərdə də davam etmişdir [6]. Müasir  dövrdə alimlərin bir çoxu indiki dağ yəhudilərinin əcdadlarının eramızdan əvvəl VII-VI əsrlərdə Assuriya və Babil işğalçıları tərəfindən əsir götürülmüş yəhudilər olduğunu iddia edirlər. Tarixçilər qeyd edirlər ki, Samirə şəhərinin Assuriya şahı Sarqon tərəfindən işğalından sonra yəhudi əhalisi əsir götürülərək Assuriyanın Kalaxa ərazisində, Qozan çayı sahillərində və Midiya dağlarında, yəni hazırki Cənubi Azərbaycan ərazisində yerləşdirilmişdir [3]. Qafqaz ərazisinə ilk yəhudilərin gəlmə tarixi isə mübahisəlidir. Əksər tarixçilərin fikrinə görə V əsrin sonları, VI əsrin əvvəllərində İranda məzdəkilər hərəkatının yatırılmasından sonra onlara dəstək verən İran yəhudiləri imperiyanın ərazisindən uzaqlaşdırılaraq Şimali Azərbaycan və Cənubi Dağıstan ərazisinə yerləşdirlir [1].

İran ərazisindən bu torpaqlara gəldiklərinə görə dağ yəhudiləri fars və ivrit dilinin qarışığı olan cuhuri dilində danışırlar.

Dağ yəhudiləri subetnik qrupunun formalaşması bununla bitməmişdir. Tədqiqatçılara görə, bu tarixi proses XIII əsrin ortalarınadək davam etmişdir. Hətta Bizans imperiyasından gələn yəhudilər də dağ yəhudiləri icmasının formalaşmasında rol oynamışlar.

Dağ yəhudilərinin daxili məskunlaşmasında əsas dəyişikliklər Səfəvi dövlətinin varlığına son qoyaraq hakimiyyəti ələ alan Nadir Şah Əfşarın dövründə (1736-1747) baş vermişdir. Nadirin zamanında yəhudilər Çıraqqalada da yaşayırdılar. Nadirin hücumları zamanı dağ yəhudilərinin Qudyal çayın sol sahilində yerləşən qəsəbəsi dağıdılmışdır. 1747-ci ildə Nadir şahın öldürülməsi ilə Əfşarlar dövləti parçalanmış, xanlıqlar yaranmışdır. Yeni yaranmış Quba xanlığının banisi olan Hüseynəli xan (1747-1758) yəhudilərin əvvəlki yerlərindən nisbətən aşağıda məskunlaşmasına icazə vermişdir. Beləliklə, burada Yəhudi qəsəbəsi yaranırmışdır [6].

Bəzi mənbələrdə dağ yəhudilərinin xüsusən Cənubi Qafqaz ərazisində məskunlaşdırılmasında Quba xanı Fətəli xan və Hüseynəli xanın adları çəkilir. Beləki dağ yəhudilərinin onların dəvəti ilə indiki Dağıstan və Quba ərazisinə köçdüyü qeyd edilir. Bundan əlavə Quba xanı Fətəli xan yəhudiləri öz himayəsinə almış və indiki Qırmızı Qəsəbənin yerləşdiyi ərazidə məskunlaşmaları üçün onlara şərait yaratmışdır. Fətəli xan Azərbaycan yəhudilərinin yaddaşında silinməz minnətdarlıq izi qoyub və  bu gün Qırmızı Qəsəbənin əsas küçələrindən biri onun adını daşıyır.

XIX əsrin əvvəllərində Azərbaycanın şimalında Rusiya imperiyasının işğalları başladı, 1804-1813 və 1826-1828-ci illər Rus-İran müharibələri nəticəsində Azərbaycan torpaqları bölüşdürüldü. Bundan sonra dağ yəhudilərinin məskunlaşdığı Şimali Azərbaycan torpaqları Rusiya imperiyasının tərkibinə qatıldı.

“Dağ yəhudiləri” termini isə ilk dəfə XIX əsrdə rus qafqazşünasları tərəfindən işlənmişdir. Belə ki, rus qoşunlarının əsgərləri Qafqazın dağlıq ərazilərində at belində və yapıncı geyinmiş yəhudiləri görəndə böyük təəccüb keçirmiş və onlara “dağ yəhudiləri” adını vermişlər [10].

Azərbaycana İran ərazisindən gəldikləri güman edilən dağ yəhudiləri Dərbənd, Bakı, Şabran, Quba, Qusar, Şamaxı, Göyçay, İsmayıllı ərazilərində məskunlaşmışdır.

Ölkəmizdəki dağ yəhudilərinin tarixindən danışarkən mütləq Quba rayonundakı Qırmızı Qəsəbəni qeyd etmək lazımdır. Çünki bu qəsəbə postsovet məkanda dağ yəhudilərinin kompakt halda yaşadığı yer hesab olunur. Bəzən “Qafqaz Qüdsü” adlandırılan bu qəsəbədə 3200-dən çox dağ yəhudisi kompakt şəkildə yaşayır. Qudyalçayın sol sahilində yerləşən Qırmızı Qəsəbə XVIII əsrdə Quba xanlığı dövründə salınmışdır. Əvvəllər “Yəhudi Qəsəbəsi” adlanan sözügedən yaşayış məntəqəsi hətta bir vaxtlar “Qafqazın Yerusəlimi” kimi də məşhurlaşmışdı. 1917-ci ildə Qırmızı Qəsəbədə 18000 (on səkkiz min) yəhudinin yaşadığı mənbələrdə qeyd edilmişdir [7]. SSRİ qurulduqdan sonra Qırmızı Qəsəbədə yaşayan yəhudilərin sayı azalmağa başlamışdır.

Azərbaycanda ilk məskunlaşan və XIX əsrdə Azərbaycanın yəhudi əhalisinin böyük bir hissəsini təşkil edən dağ yəhudiləri bu gün də Azərbaycandakı yəhudi icmasının əsas hissəsini təşkil edirlər. Onlar uzun əsrlər boyu Azərbaycandakı xalqlarla sıx təmasda yaşayıblar və öz dillərini, adət-ənənələrini və həyat tərzlərini qoruyub saxlayıblar.

Azərbaycanda məskunlaşan digər bir yəhudi subetnik qrupu *gürcü yəhudiləridir*. Gürcü yəhudiləri keçmiş dövrlərdə Gürcüstan ərazisindən Azərbaycana köçmüş və burada məskunlaşmış yəhudilərdir. Onlar əsasən Bakı şəhərində məskunlaşıblar.

Gürcüstan yəhudiləri XIX əsrin sonları –XX əsrin əvvəllərində Bakıya gəlmişdir. 1926-cı il Ümumittifaq əhali siyahıya alması zamanı Azərbaycanda 427 nəfər (210 kişi, 217 qadın) Gürcüstan yəhudisi var idi [6].

Tarixi qaynaqlar göstərir ki, yəhudilər müxtəlif vaxtlarda Bizans və İran dövlətindən, Xəzər xaqanlığından Gürcüstana köç etmiş, əvvəllər burada yerləşmiş soydaşları ilə qaynayıb-qarışmışlar. Gürcüstan yəhudiləri gürcü dilində yazıb-oxuyur və özlərini "ebraeli", "israeli", yaxud "kartuli-ebraeli" adlandırırlar. Orta əsrlərdə Gürcüstana gəlmiş səyyahlar qeyd etmişlər ki, onlar xarici görkəm

və simalarına görə yerli xalqlardan seçilmirdilər. Gürcü yəhudiləri Azərbaycana ilk dəfə XIX əsrdə gəlməyə başlamışlar. Onlar ölkəmizə Gürcüstanın Axalkələk, Axaltsixe, Oni, Kulaşi və Kutaisi bölgələrindən köçmüşlər. Sonrakı illərdə gürcü yəhudilərinin Vətənimizə axını intensivləşmiş və bu proses Birinci dünya müharibəsi başlamasınadək davam etmişdir [9].

Ölkəmizə köçən gürcü yəhudiləri Bakı şəhərində ticarət və sənətkarlıqla məşğul olub, iri Rus-Qafqaz ticarət evlərinin, birjaların, kommersiya banklarının və səhmdar cəmiyyətlərinin ortaqları olublar. Lakin XX əsrə qədər gürcü yəhudilərinin ali, hətta orta ixtisas təhsili almaq imkanı demək olar ki, yox idi. Buna görədə 1920-ci ilə qədər Bakıda "Gürcü yəhudiləri arasında maarifçiliyin yayılması cəmiyyəti" fəaliyyət göstərmişdir [5].

Hazırda Bakıdakı Ebraeli icmasının yəni gürcü yəhudi icmasının 300-ə yaxın üzvü var. Hətta Bakıda gürcü yəhudilərinə aid bir sinaqoqda yerləşir.

Ölkəmizdə yaşayan digər yəhudi etnik qrupunun nümayəndələri *aşkenazlar yəni Avropa yəhudiləridir.* Aşkenazlar niyə Avropa yəhudiləri adlanır? Çünki bu subetnik qrup erkən orta əsrlərdə Mərkəzi Avropada formalaşmışdır. Orta əsr yəhudi ədəbiyyatında "aşkenazi" adı altında Reyn çayının sahilində, daha sonra isə alman torpaqlarında yaşayan yəhudilər nəzərdə tutulurdu. Elmi dairələrdə heç kim "aşkenaz" sözünün dini yəhudi ədəbiyyatında orta əsr Almaniyasının adlandırılmasına qədər gedib çıxdığını şübhə altına almır. Belə ki, ravvin ədəbiyyatında Almaniya Nuhun oğullarından biri olan Yafətin nəvəsi Askenazın nəslinin məskunlaşdığı yer kimi qəbul edilirdi [2].

İlk aşkenazların gəlişini XIX əsrin 30-cu illərində imperiyanın sektantları köçürmə siyasətilə əlaqələndirmək olar. Sonrakı axınlar Bakının ticarət və sənaye mərkəzinə çevrilməsilə genişlənmişdir. Bakı şəhərinin ümumi əhalisi ilə birgə, burada yəhudilərin də sayı artmışdır. 1926-cı il Ümumittifaq əhali siyahıyaalmasının nəticələrinə görə Azərbaycanda 20578 yəhudi (10048 kişi, 10530 qadın), əsas etibarı ilə aşkenaz qeydə alınmışdır.

Dəqiq tarix olaraq isə Aşkenazlar 1832- ci ildə Azərbaycana gəldikləri və icmaya çevrildikləri mənbələrdə qeyd olunur [2].

Dağ yəhudilərindən fərqli olaraq, aşkenazlar yalnız şəhər sakinləri idilər. Buna görə də aşkenazlar gürcü yəhudiləri kimi əsasən Bakıda və Gəncədə məskunlaşmışdılar.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakıda yaşayan yəhudilərin, həmçinin aşkenazilərin sayı artmağa başladı ki, bununda əsas səbəbi həmin dövrlərdə Bakıda yaşanan neft bumu ilə bağlı idi. Belə ki, 1913 - cü ildə Bakıda 10000 (on min) aşkenazi yaşadığı mənbələrdə qeyd edilir. Bakıda məskunlaşan aşkenazilər ali təhsilli olurdular və onlar əsasən həkim, hüquqşünas kimi fəaliyyət göstərirdilər. Hətta həmin dövrlərdə Bakıda savadlı əhalinin 83% yəhudilər təşkil edirdi [12].

Aşkenazilər alman və ivrit dilinin qarışığı olan idiş dilində danışırlar və bu dil onların ana dilidir. Aşkenazilər Azərbaycanda sayca dağ yəhudilərindən sonra ikinci ən böyük yəhudi etnik qrupudur. Avropa yəhudilərinin Bakıda icması fəaliyyət göstərir.

1917-ci ildən şəhərləşmə prosesinin başlanması ilə yəhudilərin çoxu Bakıya yerləşməyə başladı. Məsələn həmin illərdə İsmayıllı rayonunda yəhudilərin yaşadığı  Mücü kəndi boşalmış, həmçinin 3500 dən çox yəhudidə Qubadan Bakıya köçmüşdür. Beləliklə həmin illərdən sonra Bakı yəhudilərin sayca ən çox olduqları yaşayış mərkəzinə çevrilmişdir [11].

1918-ci il mayın 28-də Azərbaycanın "İstiqlaliyyəti haqqında Aktı"nı qəbul edən Azərbaycan Xalq Cümhuriyyəti, ölkəmizin ərazisində yaşayan bütün insanlara hüquq bərabərliyi vermişdi. Xalqımızın tolerantlıq ənənələrinə sadiq qalaraq dövlətin qanunverici orqanı olan parlamenti formalaşdırarkən azsaylı xalqlara, əhalinin etnokonfessional tərkibinə heç bir ayrı-seçkilik qoyulmamışdı.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətində və parlamentində Yəhudi icmasının iki üzvü də təmsil olunmuşdur [12].

Lakin 1920-ci ilin aprelində sovet hakimiyyəti Azərbaycanda qurulduqdan sonra ölkədə dini azlıqların xüsusəndə yəhudilərin sayı azalmağa başladı. XX əsrin 30-cu illərində sovet hakimiyyəti-

nin din əleyhinə olan siyasətinin güclənməsi ilə 1934-cü ildə Bakıda aşkenazi yəhudilərinə aid sinaqoq, həmçinin Şirvanda yerləşən bir sinaqoq da bağlanmışdır. Bu illərdə bir çox yəhudi din xadimləri də repressiyaya məruz qalmışdılar [5].

Qeyd etmək lazımdır ki, Azərbaycana köçmüş Avropa yəhudilərinin taleyi daha çox bu qrupunun nümayəndələrinin Rusiya imperiyasının, sonra isə Sovet İttifaqını bütün ərazisində keçdikləri tarixi yolla şərtlənir. Keçmiş imperiya ərazisində sovet hakimiyyəti qurulduqdan sonra ənənəvi yəhudi mədəniyyəti əhəmiyyətli deformasiyalara məruz qaldı.

İkinci Dünya müharibəsi və Holokost Avropa yəhudilərinin ənənəvi mədəniyyətində böyük dəyişikliklərə səbəb olmuşdur. Belə ki, Qərbi Ukrayna, Qərbi Belarus və Baltikyanı ölkələrin yəhudiləri demək olar ki, tamamilə məhv edildi. Sovet rəhbərliyinin 1930-cu illərin sonu və 1940-cı illərin əvvəllərində apardığı antisemit kampaniyası Avropa yəhudilərini təmsil edən elm və sənət adamlarına qarşı genişmiqyaslı repressiyalara səbəb olmuşdur [8].

SSRİ-də 1939-cu ildə keçirilmiş ümumittifaq siyahıyaalmasının nəticələrinə görə Azərbaycanda 3205150 nəfər yaşayırdı ki, bunun da 41245 nəfəri və ya 1,2 %-ni yəhudilər təşkil edirdi. 1959-cu ildə SSRİ-də keçirilmiş növbəti siyahıyaalma Azərbaycanda yaşayan yəhudilərin sayının azaldığını göstərir. Belə ki, qeyd olunan ildə respublikada yaşayan 3697717 nəfər əhalinin 40204 nəfəri və ya 1,0%-i yəhudilər idi. Sonuncuların 29350 nəfəri aşkenazi yəhudiləri, 10324 nəfəri dağ yəhudiləri, 202 nəfəri gürcü yəhudiləri idi. 1989-cu ildə SSRİ tarixində əhalinin sonuncu siyahıyaalması keçirilmişdir. Bu siyahıyaalmanın nəticələrinə görə Azərbaycan üzrə əhalinin ümumi sayı artmaqda, ancaq yəhudilərin sayı azalmaqda davam edirdi. Bu dövrdə Azərbaycanda əhalinin ümumi sayı 7021178 nəfər idisə, yəhudilərin sayı 30792 nəfər və ya ümumi əhalinin 0,4%-ni təşkil edirdi. Sonuncuların 25190 nəfəri aşkenazi yəhudisi, 5484 nəfəri dağ yəhudisi, 30 nəfəri isə gürcü yəhudisi idi [10].

Doktor Mark Toltsun "Azərbaycan yəhudilərinin demoqrafik portreti, 1959-1989-cu illər" məqaləsi Azərbaycan yəhudilərinin sovet dövründəki demoqrafik inkişafına həsr olunmuşdur. Bu məqalədə müəllif Azərbaycanın yəhudi əhalisinin 1959-cu ildə müharibədən sonrakı ilk sovet siyahıyaalınması ilə 1989-cu ildə sonuncu sovet siyahıyaalınması arasında keçən otuz il ərzindəki xüsusiyyətlərini təhlil edir [4]. Müəllifin öz tədqiqatında qeyd etdiyi kimi, sovet dövründə Azərbaycanın yəhudi əhalisinin demoqrafik portretinin yenidən qurulması asan məsələ deyildi. Bu çətinliklərdən biri də o dövrün sovet siyahıyaalmalarında dağ yəhudilərinin bir neçə ad altında qeydə alınması idi. Toltsun sözlərinə görə, onlar nəinki hissələrə bölünüb, hətta eyni qeydiyyatdan keçmiş qrupdan olan aşkenazilərlə də qarışıb, sadəcə olaraq milliyyətlərini "yəhudi" kimi göstərirdilər.

**YEKUN NƏTİCƏ**

Ölkəmiz tarix boyu müxtəlif xalqlara ev sahibliyi edib. Bu xalqlardan biri də yəhudilərdir. Azərbaycanın yəhudi icması çoxəsrlik tarixə malikdir. Hazırda ölkəmizdə yəhudilər üç subetnik qrupla təmsil olunur (dağ yəhudiləri, gürcü yəhudiləri, avropa yəhudiləri). Onlar V əsrin sonları, VI əsrin əvvəllərindən müxtəlif səbəblərə görə bu torpaqlara köçmüşdür. Əsasən Bakı, Quba, Gəncə, İsmayıllı rayonları ərazisində məskunlaşmışdılar.

Uzun tarixi inkişaf nəticəsində Azərbaycan yəhudilərinin tərkibində müəyyən dəyişikliklər baş vermişdir. Aparılmış tədqiqatlardan aşağıdakı ümumiləşdirilmiş nəticələr çıxarmaq olar. Tarixi mənbələrə görə VI-VII əsrlərdən ölkəmizdə məskunlaşan yəhudilər burda yerli xalqlarla qaynayıb-qarışmışdır. Xüsusən XVI-XVII əsrlərdə Quba xanlığında yaşayan yəhudilərə xüsusi diqqət ayrılmış, lakin Sovet hakimiyyətinin bərqərar olması ilə yəhudilərə qarşı ayrı-seçkilik meyilləri güclənmişdir. Lakin Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra ölkəmizdə yaşayan digər milli azlıqlar kimi yəhudilərə də xüsusi diqqət ayrılmışdır. Yeni sinaqoqlar və məktəblər tikilmiş,

ölkəmizdə bir çox yəhudi icmaları yaranmışdır. Yəhudi icmasının dini - mədəni həyatını inkişaf etdirmək üçün dövlətimiz tərəfindən bir çox layihələr həyata keçirilmişdir.

Nəticə etibarı ilə qeyd edə bilərik ki, Azərbaycan yəhudi icmasının müsəlman dünyasındakı ən böyük evidir. Və bu Azərbaycanda yaşayan yəhudi icması və İsraildə yaşayan Azərbaycanlı icması arasında olan münasibətlərin, həmçinin Azərbaycan və İsrail Dövləti arasındakı ikitərəfli siyasi münasibətlərin təməlidir. Bu əlaqələrin əsasını isə iki xalq arasında tarixən mövcud olan münasibətlər təşkil edir.

## ƏDƏBİYYAT


1. Aqarunov, M. Dağ yəhudilərinin tarixi: [Elektron resurs] /https://kayzen.az/blog/Az%C9%99rbaycan-tarixi/2492/da%C4%9F-y%C9%99hudil%C9%99rinin-tarixi.html. Bakı, 2013.
2. Azərbaycanda yəhudilik: [Elektron resurs] /http://multikulturalizm.gov.az/az/post/1136/azerbaycanda-yehudilik.html. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi. Bakı, - 2019.
3. Əndəfilov, Ş. Azərbaycanda yəhudilik və dağ yəhudiləri // Elmi axtarışlar jurnalı -2018, N°2, s 97-100.
4. Тольц М. Демографический портрет евреев Азербайджана, 1959-1989 гг. // Москва: Диаспоры, - 2013. №.1, - с.131-157.
5. Вайнштейн С. Герман Захарьяев. Евреи Азербайджана /этнос № 5 (47), - 2010.
6. Şükürov, K. Azərbaycan yəhudiləri (qədimdən bu günə) : [Elektron resurs] / https://zim.az/tarix/3305-azrbaycan-yhudilri-qdimdn-bu-gn.html. Bakı, - 2017.
7. Multikulturalizmə Giriş Ali məktəblər üçünn dərslik. Bakı, - 2019.
8. Nəzərəliyeva, A. Azərbaycanda yaşayan avropa yəhudilərinin müasir etnomədəni dinamikasının xüsusiyyətləri / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / Bakı, - 2023. – 26s.
9. Gürcüstan yəhudi icmasının rəhbəri Abik Çaruxçevlə müsahibə // Şərq.- 2019.- 22 oktyabr.- № 139. - s. 10.
10. Hacıyev, S. Azərbaycanın yəhudi icmasının tarixindən // Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı- 2023, № 4 (44). - s. 193-198.
11. Hasanoğlu, E. Günümüzde Azerbaycan’da Yahudiler ve Kurumları // Türk & İslam Dünyası Sosyal Araştırmalar Dergisi – İstanbul, 2022. 9 (34), - s.193-213.
12. Rauf Hüseynov. Jews in Azerbaijan // İRS Focusing on Azerbaijan journal- 2011. 4/7, - s. 48-54.


## SETTLEMENT OF JEWS IN AZERBAIJAN: HISTORICAL TRACES

**Z.N. Allahverdiyeva**

Due to its geographical location and strategic position, Azerbaijan has historically hosted diverse peoples. Some peoples who passed through these lands due to trade and wars stayed and settled here. One of the peoples our country hosts are Jews. Among the peoples who have always lived in peace and security in our country, Jews can be especially noted. The Jewish community of Azerbaijan has a centuries-old history. They migrated and settled in the lands of Azerbaijan at certain stages of history. However, they have never been subjected to discrimination or assimilation in our country at any historical time. Jews played an active role in the socio-cultural life of the country. The historical study of the settlement of the Jewish community in Azerbaijan, which has an ancient history, in these lands is particularly relevant against the backdrop of Azerbaijan-Israeli strategic relations.

**Keywords:** *Israel, community, multiculturalism, minorities.*

## РАССЕЛЕНИЕ ЕВРЕЕВ В АЗЕРБАЙДЖАНЕ: ИСТОРИЧЕСКИЕ СЛЕДЫ

**З.Н. Аллахвердиева**

Благодаря своему географическому положению и стратегическому расположению Азербайджан исторически являлся местом проживания различных народов. Некоторые народы, проходившие через эти земли по торговым и военным причинам, оставались и селились здесь. Одним из народов, проживающих в нашей стране, являются евреи. Среди народов, которые всегда жили в мире и безопасности в нашей стране, можно особо отметить евреев. Еврейская община Азербайджана имеет многовековую историю. На определенных этапах истории они мигрировали и обосновались на землях Азербайджана. Однако они никогда и ни в какой исторический период в нашей стране не подвергались дискриминации или ассимиляции. Евреи играли активную роль в общественно-культурной жизни страны. Историческое изучение расселения еврейской общины Азербайджана, имеющей древнюю историю, на этих землях особенно актуально на фоне азербайджано-израильских стратегических отношений.

**Ключевые слова:** *Израиль, сообщество, мультикультурализм, меньшинства.*